

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ qapısı

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 196 (21.348)

*9 oktyabr 2015-ci il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiymәti 20 qәpik


## Rəsmi xronika

Oktyabrın 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkdilli Dövlətlərin Xüsusi Xidmət Orqanları Konfransının 18-ci iclasının iştirakçılarını qəbul edib.

Dövlətimizin başçısı görüşdə çıxış edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 8-də Beynəlxalq “Fair Play” Komitəsinin prezidenti Jeno Kamyutini, Avropa “Fair Play” Hərəkatının prezidenti Kristian Hinterberqeri və vitse-prezidenti Erdoğan Arıpınarı qəbul edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 8-də Mədən Hasilatı üzrə Şəffaflıq Təşəbbüsü İdarə Heyətinin sədri Kler Şortu qəbul edib.

Görüşdə Azərbaycanın Mədən Hasilatı üzrə Şəffaflıq Təşəbbüsündə iştirakının perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.



## Ulu öndər Heydər Əliyev müstəqil Azərbaycanın qurucusu və memarıdır

***Oktyabrın 8-də Heydər Əliyev Muzeyində “Heydər Əliyev və müstəqil Azərbaycan” mövzusunda Naxçıvan Dövlət Texniki Kolleci tələbələri üçün açıq dərs keçilib.***

Açıq dərsdə muzeyin direktoru Ramil Orucəliyev bildirib ki, ölkəmizin müstəqil dövlətçilik tarixinin təhlili göstərir ki, dövlət qurmaq kimi çətin, mürəkkəb və şərəfli missiyanı iradəli, geniş və qlobal dünyagörüşlü, xalqın dəstəyinə malik və onun milli liderinə çevrilmiş şəxs yerinə yetirə bilərdi. XX əsrin 90-cı illərinin əvvəllərində Azərbaycanda bu işlərin öhdəsindən gəlmək iqtidarında olan yeganə lider görkəmli dövlət xadimi Heydər Əliyev idi. Uzun illər öz dövlətçiliyindən və milli-mənəvi köklərindən ayrı salınmış, milli və dövlətçilik maraqları tapdanmış xalqımızın özünəqayıdış və özünütəsdiqində ümummilli lider Heydər Əliyevin əməli fəaliyyətinin və ideya-siyasi baxışlarının çox böyük rolu olub.



Vurğulanıb ki, Azərbaycanın müstəqilliyinin bərpa olunmasında ulu öndər Heydər Əliyevin fəaliyyətinin Naxçıvan dövrü xüsusi əhəmiyyətə malikdir. Ümummilli lider Heydər Əliyev hələ sovet hakimiyyəti dövründən etibarən Azərbaycanda milli kadrların yetişdirilməsinə, beləliklə, Azərbaycançılıq düşüncəsinə real təminat əldə olunmasına, Dağlıq Qarabağın sosial-iqtisadi inkişafının möhkəmləndirilməsinə xüsusi diqqət yetirdiyi kimi, Naxçıvan Muxtar Respublikasının inkişaf etdirilməsinə də ümummilli vəzifələr səviyyəsində böyük qayğı göstərib. Dahi şəxsiyyət Naxçıvanda yaşayıb çalışdığı, muxtar respublikanın rəhbəri olduğu illərdə Azərbaycan üçün çox əhəmiyyətli olan böyük tarixi qərarlar qəbul edib. Azərbaycanın bu diyarının – Naxçıvanın mürəkkəb hərbi-siyasi şəraitdə işğaldan xilas olunmasının başlıca səbəbi xalqımızın böyük oğlu Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri kimi xalqı öz ətrafında birləşdirməsi, region dövlətləri ilə əlaqələri möhkəmləndirməsi idi. Azərbaycanın mürəkkəb və taleyüklü tarixi dövründə dövlətə rəhbərliyin ağır məsuliyyətini öz üzərinə götürmüş ulu öndərimizin siyasi kursunun yaradıcılıqla həyata keçirilməsi müstəqil dövlətimizin bugünkü intibahının və gələcək inkişafının əsasını təşkil edir.

Ulu öndər Heydər Əliyevin müstəqil dövlətimizin yaranmasında və inkişafındakı tarixi xidmətlərini vurğulayan, dahi rəhbər Heydər Əliyevin zəngin dövlət idarəçilik təcrübəsinin əhəmiyyətindən danışan Ramil Orucəliyev onu da qeyd edib ki, iki əsrin qovuşuğunda Azərbaycanın demokratik və bəşəri dəyərlərə sadiq müstəqil bir dövlət kimi formalaşması ümummilli lider Heydər Əliyevin 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdışının nəticəsidir. Məhz həmin tarixi qayıdışdan sonra ümummilli liderimizin uzaqgörənlik və müdrikliklə həyata keçirdiyi siyasət Azərbaycanın müstəqilliyini əbədi, dönməz və sarsılmaz edib. 1993-cü ildən sonrakı dövr müasir Azərbaycanın tarixinə dövlət müstəqilliyinin qorunub saxlanılması uğrunda mübarizə dövrü kimi yazılıb, ictimai-siyasi sabitliyin və qanunçuluğun bərqərar edilməsi bu dövrün ən mühüm nailiyyəti olub. Məhz bundan sonra dövlət quruculuğunda, iqtisadi, sosial və mədəni həyatda böyük işlərə başlamaq, genişmiqyaslı və ardıcıl islahatlar aparmaq üçün əlverişli şərait yaradılıb.

Sonra tələbələr muzeyin ekspozisiyası ilə tanış olublar.

**Səbuhi HÜSEYNOV**

## Meliorasiya və irriqasiya tədbirlərinə diqqət artırılıb

Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsi tərəfindən 2015-ci ilin sentyabr ayında da müvafiq tədbirlər görülmüş, payız suvarma mövsümündə əkin sahələrinin su təminatı diqqətdə saxlanılmışdır. Bu dövrdə muxtar respublika ərazisində 7,56 kilometr kanal, 48 kilometr ara arxları, 10 kilometr kollektor lildən təmizlənmiş, 4,7 kilometr yeni suvarma xətti çəkilmişdir. Həmçinin Araz çayı sahillərində torpaqların yuyulmasının qarşısını almaq üçün 1 kilometr məsafədə sahilbərkitmə işi aparılmış, Vayxır sol sahil kanalının altında tikilən mexaniki suvarma şəbəkəsində hidrantlar, təzyiqqırıcılar və elektron sayğaclar quraşdırılmışdır.

Muxtar respublikada istismarda olan subartezian quyularının təmir-bərpası və yenilərinin qazılması diqqət mərkəzində saxlanılır. Ötən ay Şərur rayonunun Çəmənli, Maxta, Babək rayonunun Zeynəddin kəndlərində yeni subartezian quyuları istifadəyə verilmişdir. Ümumiyyətlə, sentyabr ayı ərzində 68 subartezian quyusunda təmir işləri aparılmış, 6 yeni quyu qazılmışdır. Həmçinin kəhrizlərin bərpasına da diqqət artırılmış, ötən ay 6 kəhrizdə təmir işləri davam etdirilmişdir.

Komitə tərəfindən həyata keçirilən tədbirlər içərisində içməli su təminatının yaxşılaşdırılması da mühüm yer tutur. Ötən ay 7,4 kilometr yeni içməli su xətti çəkilmiş, 850 metr kaptaj tikilmiş, 2,1 kilometr içməli su xətti təmir olunmuşdur.

***Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin mətbuat xidməti***

## Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin nümayəndələri tələbələrlə görüşüb

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il iyulun 27-də imzaladığı “Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında” Sərəncamın icrası ilə bağlı Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi Naxçıvan Dövlət Universitetinin (NDU) Tibb fakültəsində hamiliyə götürülmüş ixtisaslarda təhsil alan tələbələrlə görüş keçirib.***



Tədbirdə universitetin tədris işləri üzrə prorektoru, filologiya üzrə fəlsəfə doktoru, dosent Surə Seyid çıxış edərək Azərbaycanda və onun ayrılmaz tərkib hissəsi olan muxtar respublikada tibb təhsilinin inkişafına göstərilən dövlət qayğısından danışıb, NDU-nun Tibb fakültəsində təhsil alan tələbələr üçün hər cür şərait yaradıldığını bildirib.

Prorektor tibbi kadrlara olan tələbatı ödəmək üçün 1999-cu ildə ali təhsil müəssisəsində Tibb fakültəsinin yaradıldığını, hazırda ən yeni tibbi avadanlıqlarla təchiz edilən Universitet Xəstəxanasının uğurla fəaliyyət göstərdiyini nəzərə çatdırıb.

Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin müavini Sona Məmmədova bildirib ki, sərəncamdan irəli gələn vəzifələrin icrası muxtar respublika səhiyyəsi üçün mühüm əhəmiyyət kəsb edir. Bu gün yüksəkixtisaslı həkim kadrlarının hazırlanması işi Səhiyyə Nazirliyinin qarşısında duran vacib məsələlərdəndir. Bu mənada, muxtar respublikada ali və orta ixtisas təhsili müəssisələrində tibb təhsili alanların praktik iş qabiliyyətinə yiyələnmələri daim diqqət mərkəzində saxlanılır.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Stomatoloji Mərkəzdə universitetin Stomatologiya ixtisasında təhsil alan tələbələrə protez hazırlamaları üçün alətlər verilib, onların sərbəst işləmələri üçün hər cür şərait yaradılıb.

Səhiyyə nazirinin müavini səhiyyənin ümumi inkişafına da nəzər salaraq bildirib ki, səhiyyə sisteminin yeni dövrün tələblərinə uyğunlaşdırılması, əhalinin sağlamlığının etibarlı təminatına imkan verən müasir tibb infrastrukturunun yaradılması muxtar respublikada uğurla davam etdirilən genişmiqyaslı quruculuq işlərinin mühüm tərkib hissəsinə çevrilib. İnsanların sağlamlığının yaxşılaşdırılması, əhalinin bütün təbəqələrinin keyfiyyətli tibbi xidmətlə təmin edilməsi məqsədilə bu gün muxtar respublikada mühüm işlər görülür. Bütün bunlarla yanaşı, həkimlərin peşə vərdişlərinin artırılması məqsədilə onlar çoxsaylı seminarlarda, konfranslarda iştirak edir, tibb işçiləri Bakı şəhərinə və Türkiyə Respublikasının müxtəlif klinika və xəstəxanalarına təkmilləşdirmə kurslarına göndərilirlər. Bütün bunların nəticəsidir ki, muxtar respublikadan olan həkimlər müstəqil şəkildə xəstələr üzərində açıq ürək, laporoskopik, TUR, LOR, göz və digər mürəkkəb cərrahi əməliyyatlar aparırlar. Əhalinin sağlamlığının etibarlı qorunması da məhz bu inkişafın hesabına mümkün olur.

Sonda bir sıra təkliflər irəli sürülüb, tələbələri maraqlandıran suallar cavablandırılıb.

**Mina QASIMOVA**

## Muxtar respublikada abonentlər dayanıqlı elektrik enerjisi ilə təmin olunur

***Muxtar respublikada dayanıqlı elektrik enerjisi şəbəkəsi yaradılmışdır. Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyi elektrik enerjisi təchizatının yaxşılaşdırılması, yaşayış evlərinin, istehsalat və xidmət sahələrinin tələbatının ödənilməsi istiqamətində hər ay müvafiq işlər görür.***

Sentyabr ayında 20 meqavatlıq Günəş Elektrik Stansiyasının tikintisi davam etdirilmişdir. Hazırda ərazidə metal konstruksiyalar və Günəş panelləri quraşdırılır, kabel və elektrik verilişi xətləri çəkilir.

Ötən ay elektrik stansiyalarında və yarımstansiyalarda əsaslı və cari təmir işləri aparılmış, yeni transformator yarımstansiyaları quraşdırılmış, elektrik verilişi xətləri çəkilmiş və hava verilişi xətlərinin yeraltı kabel xətləri ilə əvəzlənməsi işləri davam etdirilmişdir. Belə ki, Kəngərli rayonu ərazisində inşa edilən tikinti materialları zavodunun elektrik təchizatı üçün yeni 110/10 kilovoltluq yarımstansiya quraşdırılmış, 10 meqavolt-amper gücündə transformator, 110 kilovoltluq eleqaz açarı, ayırıcı, boşaldıcı və 4 ədəd 10 kilovoltluq eleqaz açarlı hücrə quraşdırılmış, 300 metr uzunluğunda elektrik verilişi xətti çəkilmişdir. Ümumiyyətlə, ay ərzində muxtar respublikanın şəhər, qəsəbə və kəndlərində 4 yeni transformator yarımstansiyası qoyulmuş, 51 yarımstansiya əsaslı təmir edilmiş, 6 kilometr uzunluğunda elektrik verilişi xətti çəkilmişdir. Transformator təmiri sexlərində 8 transformator əsaslı təmir olunaraq elektrik şəbəkələrinə qaytarılmış, elektrik avadanlıqları və materialların tədarükü davam etdirilmişdir.

İstifadə olunan elektrik enerjisinin dəqiq qeydiyyatını aparmaq üçün mənzillərdə rəqəmsal elektron sayğacların quraşdırılması, enerji haqlarının sayğacların göstəriciləri əsasında ödənilməsi təmin edilmişdir. Elektrik enerjisindən istifadə olunması vəziyyətinin yoxlanması üçün reydlər sentyabr ayı ərzində də davam etdirilmişdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyinin mətbuat xidməti***



*Azərbaycan 1993-cü ildə Ümumdünya Poçt İttifaqının üzvlüyünə qəbul olunmuşdur. Həmin tarixdən etibarən hər il oktyabrın 9-u Azərbaycanda Ümumdünya Poçt Günü kimi qeyd olunur.*

*9 oktyabr Ümumdünya Poçt Günüdür*

# Muxtar respublikada poçt xidməti müasir tələblər əsasında qurulub

Ölkəmizdə rabitə və informasiya texnologiyalarının inkişafı ötən əsrin 70-ci illərinə təsadüf edir. 1969-cu ildən başlayaraq ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə bu sahədə əsaslı dəyişikliklər baş vermiş, o dövrün tələblərinə uyğun poçt və rabitə sistemi yaradılmışdır. Azərbaycan müstəqillik qazandıqdan sonra isə poçt sistemi yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Ulu öndərin rəhbərliyi ilə 1997-ci ilin mart ayında poçt rabitəsinin "Dirçəliş və inkişaf proqramı" qəbul olunmuş, həmin ilin dekabr ayında isə "1998-2003-cü illər üçün poçt rabitəsinin inkişaf konsepsiyası" təsdiq edilmişdir. Ulu öndərin 2003-cü il 17 fevral tarixli "Azərbaycanın inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya" (2003-2012-ci illər) haqqında Sərəncamına əsasən, Azərbaycanda rabitə sistemi, o cümlədən poçt rabitəsi yeni və davamlı inkişaf mərhələsinə qədəm qoymuşdur.

Poçt-rabitə sisteminin müasir tələblər əsasında qurulması Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin də daim diqqət mərkəzindədir. 2004-cü ildə "Poçt haqqında" Azərbaycan Respublikası Qanununun qəbul edilməsi bu sahənin qanunvericilik bazasını xeyli gücləndirmişdir. Bu gün ölkəmizdə bütün poçt şöbələri müasir standartlara uyğun avtomatlaşdırılmış, texniki avadanlıqlarla tam təchiz olunmuşdur. Azərbaycanda kosmik sənayenin inkişafı, süni peyklərin orbitə buraxılması digər rabitə xidmətləri ilə yanaşı, poçt sahəsində də informasiya texnologiyalarının ən son nailiyyətlərinin tətbiqinə geniş imkanlar açmış, əhaliyə göstərilən xidmətlərin keyfiyyətini artırmışdır.

Naxçıvan Muxtar Respublikasının poçt-rabitə sistemi də özünəməxsus inkişaf yolu keçmişdir. Naxçıvanda ilk poçt ekspedisiyası hələ 1828-ci ildə yaradılmış, 1864-cü ildə Tiflis-Naxçıvan teleqraf xətti çəkilmişdir. 1918-ci ildə Naxçıvan şəhərində ilk poçt kontoru açılmış, 1927-ci ildə isə Ordubad, Culfa, Şərur poçt-teleqraf şəbəkələri və Naxçıvan şəhərində Poçt-Teleqraf Agentliyi yaradılmışdır. 1996-cı ildən başlayaraq Naxçıvanda poçt xidmətlərinin keyfiyyəti mərhələ-mərhələ yüksəldilmiş, bu sahənin texniki imkanları genişləndirilmişdir. Telekommunikasiya sisteminin müasir texnologiyalar əsasında təkmilləşdirilməsi və yeni rabitə şəbəkələrinin istifadəyə verilməsi, poçt bölmələrinin sayının artırılması və internetə çıxış imkanının yaradılması ilə Naxçıvan Muxtar Respublikasının informasiya şəbəkəsi xeyli genişləndirilmişdir.

Ötən dövrdə həyata keçirilən ardıcıl tədbirlər nəticəsində poçt müəssisələri bütün növ xidmətlərin təşkili üçün müasir texnologiyalarla təmin edilmiş, xidmətin səviyyəsi yüksəldilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasının Rabitə və Yeni Texnologiyalar Nazirliyi yanında "Naxçıvanpoçt" Məhdud Məsuliyyətli Cəmiyyətinin yaradılması haqqında" 2013-cü il 30 iyul tarixli Sərəncamı isə bu sahədə görüləcək işlərin miqyasını daha da genişləndirmişdir.

Muxtar respublikada rabitə sahəsində gedən sürətli inkişaf, fiber-optik xətlərinin çəkilməsi, yüksəksürətli kompüter şəbəkəsinin yaradılması poçt sahəsində də xidmətlərin müasir tələblərə uyğun qurulmasına şərait yaradır. Hazırda muxtar respublika ərazisində 8 poçt filialı və 147 poçt bölməsi fəaliyyət göstərir. Poçt filiallarının və bölmələrinin kompüterləri Naxçıvan şəhərində yerləşən Məlumat Hesablama Mərkəzinə qoşulmuş, poçt əməliyyatlarının operativ həyata keçirilməsi təmin olunmuşdur. Hazırda muxtar respublika ərazisində telefon və kommunal xidmət haqlarının yığılması, beynəlxalq və ölkədaxili pul baratlarının, teleqramların göndərilməsi və qəbulu tamamilə avtomatlaşdırılmış qaydada həyata keçirilir. Əhaliyə göstərilən poçt xidmətinin keyfiyyətinin daha yüksək səviyyədə təşkil edilməsi üçün poçt filiallarında və bölmələrində 118 ədəd POS-terminal quraşdırılmışdır. "Naxçıvanpoçt" MMC-nin Hökumət Ödəniş Portalı istifadəyə verildikdən sonra Hökumət Ödəniş Portalına qoşulan idarə və təşkilatlar üçün poçt bölmələri tərəfindən onlayn ödəniş aparmaq imkanı yaradacaqdır. Bundan başqa, Naxçıvan şəhərində smartkarttipli elektrik və qaz sayğaclarının quraşdırılması ilə əlaqədar 10 poçt bölməsində yeni kompüter və kart oxuyucu qurğular qoyulmuş və smartkartların yüklənməsi xidməti təşkil olunmuşdur.

Texnologiyanın inkişaf tempi elektron imzadan istifadəyə tələbatı da artırmışdır. Elektron imzadan istifadə vaxta qənaət etməklə sənədi imzalayaraq istənilən məsafəyə tam təhlükəsiz göndərməyə imkan verir. Bu tələbatı ödəmək məqsədilə mərkəzi poçt şöbəsində elektron imzanın verilməsi xidməti təşkil edilmişdir.

Bu gün muxtar respublikanın şəhər və kəndlərində quruculuq işləri aparılarkən poçt sahəsinin maddi-texniki bazası da möhkəmləndirilir, yeni rabitə evləri və poçt bölmələri istifadəyə verilir, xidmətin səviyyəsi yüksəldilir. Bundan başqa, muxtar respublika ərazisində poçtdaşımalarının həyata keçirilməsi üçün "Express Mail Servis", DHL beynəlxalq ekspress poçt xidmətləri fəaliyyət göstərir. Bu da məktubların, sənədlərin və bağlamaların ən qısa zamanda ünvana etibarlı çatdırılmasını təmin edir. Eyni zamanda göndərişlərin hansı məntəqədə olduğunun internet üzərindən izlənməsinə imkan yaradır.

Poçt işçiləri bundan sonra da səylə çalışacaq, yaradılan şəraitdən səmərəli istifadə edərək muxtar respublika sakinlərinə nümunəvi xidmət göstərəcəklər.

**Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti**

# Bütün yaşayış məntəqələri abadlaşdırılan rayon




***"Bu rayonun yaradılması ilə bölgədə bir çox məsələlər həll olunmuşdur. Artıq rayonun öz büdcəsi var, yeni yaradılmış idarələrdə mindən çox iş yeri açılmışdır. Beləliklə, bu rayonda yaşayan əksər ailələrin heç olmasa bir üzvü işlə təmin edilmişdir. Onların işlə təmin edilməsi ailədə də sabitliyin yaranması deməkdir. Yeni rayonun yaradılması bu bölgənin iqtisadiyyatına, gələcəkdə onun daha da möhkəmlənməsinə, ailələrin məskunlaşmasına kömək edəcəkdir. Tarixi bir adı özündə yaşadan Kəngərli rayonu qısa bir müddət ərzində muxtar respublikanın digər rayonlarının səviyyəsinə çatacaqdır".***

Bu sözləri 2006-cı ilin iyul ayında Kəngərli Rayon İcra Hakimiyyətinin inzibati binasının açılış mərasimində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri demişdir. 11 il bundan əvvəl əsası qoyulan Kəngərli rayonu ölkəmizin, eləcə də muxtar respublikamızın ən gənc rayonlarından hesab olunur. Ancaq bu "gənclik" rayonun inzibati vahid kimi statusundan qaynaqlanır, əslində, ərazinin tarixi çox qədimlərə gedib çıxır. Qarabağlar, Yurdçu, Şahtaxtı, Çalxanqala kimi kənd yaşayış məntəqələrində qədim tarix və mədəniyyətin mövcudluğunu göstərən dövrlərdən bizi min illər ayırır. Bu yurd yerində keçmişdən üzü bəri Azərbaycanın dövlətçilik tarixində, mədəniyyətində, elm və səhiyyəsində öz sözünü demiş, böyük xidmətlər göstərmiş tarixi şəxsiyyətlər yetişib. Zəngin və çoxçalarlı ənənələrə malik Kəngərli rayonu bu gün həm də müstəqil Azərbaycanın yeni inkişaf modelinin bir rayonun simasındakı nümunəsinə çevrilib. Yarandığı gündən indiyədək burada görülən hər bir işə kompleks və məqsədyönlü yanaşma ortaya qoyulub. Nəticədə, Kəngərli rayonu hərtərəfli infrastrukturun təmin olunması baxımından 30-40 illik bir yolu 11 il ərzində qət edib.

Rayon 1 qəsəbə, 10 kənd yaşayış məntəqəsini özündə birləşdirir. Rayon mərkəzi olan Qıvraq qəsəbəsi Naxçıvan-Sədərək magistral avtomobil yolunun üzərində yerləşir. Bu ərazi əvvəllər boş, çöllük bir sahə idi. Burada rayon mərkəzinin salınmasına qərar veriləndə çoxları bunun xəyal olduğunu düşünürdü. Ancaq qısa bir müddətdə burada genişmiqyaslı tikinti-quruculuq işləri həyata keçirildi. Həmin ərazidə inşa edilən bir-birindən yaraşıqlı inzibati binalar, mədəniyyət və istirahət parkı, gözəl memarlıq quruluşuna malik mədəniyyət evi, qəsəbədaxili rahat yollar, salınmış yaşıllıq zolaqları rayon mərkəzinə xüsusi gözəllik verir.

Yuxarıda da qeyd etdiyimiz kimi, ötən müddət ərzində rayonda genişhəcmli quruculuq tədbirləri aparılıb. Muxtar respublikamızda artıq ənənəvi hal almış kənd mərkəzlərinin tikintisi Kəngərli rayonunun bütün yaşayış məntəqələrini əhatə edib. Hazırda rayonun Yurdçu kəndində orta məktəb, kənd mərkəzi və xidmət mərkəzi üçün binaların tikintisi aparılır. Bu işlər tamamlandıqdan sonra Kəngərli rayonu muxtar respublikada bütün yaşayış məntəqələrinin abadlaşdırıldığı ilk rayon olacaq. Qıvraq qəsəbəsində hər il yeni binaların istifadəyə verilməsi qəsəbənin simasını xeyli dəyişibdir. Ötən il burada Təhsil Şöbəsi, Uşaq-gənclər şahmat məktəbi, Elektrik Şəbəkəsi üçün yeni binalar və Qıvraq elektrik yarımstansiyası istifadəyə verilib. Bu il isə qəsəbədə yeni Ticarət-İaşə və Bazar Kompleksi tikilib. Bundan əlavə, istifadəyə verilən tikililərin ətrafı abadlaşdırılıb, qəsəbə məscidi əsaslı təmir olunub.

Aparılan quruculuq tədbirləri sırasında müasir və rahat yol şəbəkəsinin yaradılması Kəngərli rayonunda əsas diqqət mərkəzində saxlanılan sahələrdəndir. Son illərdə görülən işlərin nəticəsidir ki, rayonda bütün kənd yolları abadlaşdırılıb. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Naxçıvan Muxtar Respublikasının Culfa və Kəngərli rayonlarının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında" 2011-ci il 2 sentyabr tarixli Sərəncamına uyğun olaraq, uzunluğu 39 kilometr olan və 13 min nəfərdən çox sakinin yaşadığı 5 kənd yaşayış məntəqəsini birləşdirən Naxçıvan-Sədərək magistralı-Təzəkənd-Çalxanqala-Qarabağlar-Yurdçu-Qıvraq (Xıncab da əlavə yola birləşməklə) dairəvi avtomobil yolu yenidən qurulub. Bu da adıçəkilən kəndlərə gediş-gəlişi xeyli asanlaşdırıb. Bundan əlavə, ötən dövr ərzində ümumi uzunluğu 16 kilometr olan Xanlıqlar-Püsyan-Qıvraq avtomobil yoluna asfalt örtük salınıb, Qıvraq qəsəbəsinin, Qarabağlar və Yurdçu kəndlərinin daxili yollarında təmir işləri aparılıb.

Rayonda əkinəyararlı torpaqlardan səmərəli istifadə olunması daim diqqət mərkəzində saxlanılır, əkin sahələrinin həcminin artırılması üçün meliorativ və digər tədbirlər həyata keçirilir. Əkin sahələrinin və yaşıllıqların suvarma suyuna olan tələbatını ödəmək üçün 2015-ci ilin aprel ayında Uzunoba Su Anbarından qidalanan, hər birinin uzunluğu 16,2 kilometr olan 720 millimetrlik qoşa təbii axınlı boru xətti, 3 aqreqatlıq nasos stansiyası, 8,7 kilometr təzyiqli boru xətti, 1500 kubmetrlik qəbuledici və 250 kubmetrlik supaylayıcı hovuz istifadəyə verilib. Rayonun Böyükdüz kəndində 2000 hektar torpaq sahəsini suvarma suyu ilə təmin etmək üçün yeni suvarma xətti çəkilib. Eyni zamanda digər yaşayış məntəqələrində 900 metr suvarma, 335 metr içməli su xətləri çəkilib, 1,7 km uzunluğunda drenaj xətti qazılıb istifadəyə verilib.

Həyata keçirilən tədbirlər rayonda aqrar sahənin inkişaf etdirilməsinə şərait yaradıb. Bu da ildən-ilə kənd təsərrüfatı məhsullarının tədarükündə özünü göstərir. Vurğulamaq lazımdır ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqqında" 2007-ci il 23 yanvar tarixli Sərəncamı rayonda əkinçiliyin inkişafına stimul verib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamları ilə təsdiq edilmiş "2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" və "2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın uğurla icrası kənd təsərrüfatı məhsullarının həcminin ildən-ilə artması ilə nəticələnib. Kəngərli Rayon İcra Hakimiyyətindən aldığımız məlumata görə, 1 sentyabr 2015-ci il tarixə rayonda 5056 hektar dənli və dənli-paxlalı bitkilərin əkini sahəsindən 13122 ton, 215 hektar kartof sahəsindən 2835 ton, 294 hektar tərəvəz bitkiləri əkini sahəsindən 3565 ton, 180 hektar bostan bitkiləri sahəsindən 2159 ton məhsul yığılıb. Eyni zamanda rayonun barverən meyvə bağlarından 4521 ton, üzüm bağlarından isə 122,6 ton məhsul tədarük olunub. Yeri gəlmişkən deyək ki, meyvəçilik və tərəvəzçiliyin inkişaf etdirilməsinə şərait yaradan vasitələrdən biri də rayonda 300 ton tutumu olan soyuducu anbarın mövcudluğudur. Təsərrüfat sahibləri bundan yetərincə yararlana bilirlər. 2010-cu ildə Yurdçu kəndi ərazisində istifadəyə verilən soyuducu anbar rayonda kənd təsərrüfatı məhsullarının saxlanılmasında əhəmiyyətli rol oynayır.

Kəngərli rayonunda yaşıllaşdırma işləri də hər zaman diqqət mərkəzində saxlanılan tədbirlərdəndir. Cari ilin ötən dövründə rayon üzrə 4 hektar ərazidə meşəsalma, 7,5 hektar ərazidə isə meşəbərpa işləri aparılıb. Görülən işlər sayəsində 5900 ədəd müxtəlif meyvə tingləri, 320 ədəd həmişəyaşıl dekorativ ağac, 2800 ədəd gül kolu əkilib. Yaşıllıqlara aqrotexniki qaydada qulluq göstərilərək qorunması və suvarılması təmin edilib.

Ümumiyyətlə, rayonun bugünkü mənzərəsinə nəzər saldıqda, burada istənilən sahənin inkişafında müsbət dəyişikliklərin olduğunu görərik. Və əldə olunan nailiyyətlər təkcə iqtisadi sahələri əhatə etmir. Mədəniyyət, təhsil, səhiyyə kimi humanitar sahələr də Kəngərli rayonunun hərtərəfli inkişafında mühüm rol oynayır. Bu haqda isə növbəti yazıda bəhs edəcəyik.

*Bəli, muxtar respublikanın ən gənc rayonu olan Kəngərli rayonu indi rahat yolları, abad kəndləri, müasir siması, daim diqqət mərkəzində saxlanılan təmizliyi ilə seçilir. Ölkə başçısının bir neçə il bundan əvvəl söylədiyi **"... Gələcək illərdə Kəngərli rayonunda bundan da gözəl və yaxşı işlər görüləcəkdir"** fikri hesab edirik ki, tam dolğunluğu ilə bu rayonun simasında öz təsdiqini tapıb. Unutmayaq ki, Kəngərli rayonu həm də Naxçıvanın ötən 20 ildə keçdiyi yolun son 11 ilində bünövrəsindən son daşınadək ərsəyə gətirilən müasir yaşayış məntəqələrindəndir.*

**Səbuhi HƏSƏNOV**

# Uşaq bağçalarında yaradılan şərait gələcəyimizin sağlam təməllər üzərində qurulmasına xidmət edir

***Muxtar respublikada məktəbəqədəryaşlı uşaqların intellektual, fiziki və psixoloji inkişafının, onların şəxsiyyətinin hərtərəfli formalaşmasının və məktəbə hazırlanmasının təmin edilməsi, uşaqların yaradıcılıq mühitində böyüməsi üçün zəruri şəraitin yaradılması prioritet istiqamətlər sırasındadır. Son illər muxtar respublikada tikilən, yaxud yenidən qurulan 17 məktəbəqədər təhsil müəssisəsində müasir şərait yaradılıb, qrup, yataq və soyunub-geyinmə otaqları, yemək və oyun zalları, valideynlər üçün gözləmə otağı, tədbirlər zalı, yeməkxana, bufet, metodist və tibb otaqları, dərzi və camaşırxana otaqları, idman qurğuları istifadəyə verilib.***



Bağçayaşlı uşaqların məktəbəqədər təhsil almasının vacibliyini bildirən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Yaradılan şərait uşaqların yüksək sosial-mənəvi mühitdə böyüməsinə, onların təlim-tərbiyəsinin, ilkin təhsilinin müasir səviyyədə təşkil olunmasına imkan verəcəkdir. Uşaq bağçalarında cəmiyyət və ölkə üçün yararlı vətəndaş kimi böyüdülən uşaqlar isə orta təhsillərini də müvəffəqiyyətlə başa vuraraq dövlətimizin gələcək inkişafında yaxından iştirak edəcəklər. Ona görə də məktəbəqədər tərbiyə müəssisələrində uşaqlara ilkin biliklərin dərindən öyrədilməsi, onların məktəbə hazırlanması və əsl vətəndaş kimi yetişdirilməsi diqqət mərkəzində saxlanılmalıdır".***

İnsan həyatında məktəbəqədər təhsilin əhəmiyyəti böyükdür. Məktəbəqədər təhsil yalnız təhsilin növbəti mərhələsində uşağın nailiyyət göstəricilərinin yüksəldilməsi baxımından əhəmiyyətli olmayıb, həm də gələcəkdə zəruri ehtiyaclarını təmin etməyə maraqlı olan, düşdüyü vəziyyətlərdən çıxmağı bacaran fəal vətəndaşın formalaşdırılmasında böyük rol oynayır.

Məktəbəqədər təhsilin məzmunu nəticəyönümlülük, şəxsiyyətyönümlülük, inteqrativlik prinsipləri əsasında müəyyənləşdirilir və uşaqların meyil və maraqları, potensial imkanları, təhlükəsizliyi, yaşı nəzərə alınmaqla, öyrədici mühit yaradılması, əqli, fiziki, sosial-emosional və nitq qabiliyyətlərinin inkişaf etdirilməsi, sağlamlığının qorunması və möhkəmləndirilməsi, onların sağlam həyat tərzi keçirməsinin, şəxsiyyətinin harmonik inkişafının təmin olunması kimi məqsədlər daşıyır.

Uşaq bağçalarında 1-2 və 2-3 yaşlı körpələr, 3-4 yaşlı orta, 4-5 yaşlı böyük və 5-6 yaşlı məktəbə hazırlıq qruplarında uşaqlara yaşlarına uyğun təlim keçirilir. Məktəbəqədər təhsil müəssisələri uşağın mədəni-estetik inkişafına təsirsiz ötüşmür. Belə ki, uşaqlar təhsilin ilk pilləsində xalqımızın mədəniyyətinə, ənənələrinə bələd olur, ətrafdakılarla nəzakətlə davranır, onu əhatə edən ətraf aləmdəki gözəllikləri görüb zövq almağı, qiymətləndirməyi, sadə kompozisiyalar qurmağı bacarır.

Uşaq bağçalarının daha bir üstünlüyü uşağın nitq qabiliyyətinin və ünsiyyət qurmasının inkişafına verdiyi töhfədir. Məsələn, nitq sahəsində uşaqda bunlar sürətlə baş verir: uşaqda dinləmə və başadüşmə vərdişləri inkişaf edir, o, sözləri düzgün tələffüzetmə və danışma bacarığına yiyələnir, öz fikirlərini ardıcıl, sərbəst, rabitəli şəkildə ifadə etməyi bacarır, danışılanı anlayır, onun söz ehtiyatı zənginləşir. Uşaq yaşıdları ilə və böyüklərlə ünsiyyət qurmağı bacarır, özünün hiss, həyəcan və fikirlərini başqalarına çatdırır. Sonrakı mərhələlərdə artıq uşaq sözləri hecalara, cümlələri sözlərə ayırır, öz fikrini başqalarına daha dəqiqliklə çatdıra bilir, şəkil üzrə müstəqil hekayə qurmağı, çap hərfləri ilə sadə sözləri yazmağı bacarır.

Bundan əlavə, məktəbəqədər təhsil müəssisələrində fiziki inkişaf sahəsində uşaqda kiçik motorika (şəkil çəkir, gil ilə işləməyi və kəsib-yapışdırmağı bacarır) və böyük motorika (fərqli üsullarla müxtəlif istiqamətlərdə qaçmağı bacarır) inkişaf edir, uşaq müxtəlif məsafələrdə və istiqamətlərdə yerləşən əşyaları görür və müxtəlif tonda olan səslərə uyğun reaksiya verir, onları fərqləndirir. Sağlamlıq baxımından uşaq gigiyena qaydalarına əməl edir, özünə qulluq edə bilir, fiziki tapşırıqları yerinə yetirməyə maraq göstərir. Uşaq ekstremal vəziyyətlərdə necə hərəkət edəcəyini bilir, onda lazım olan anda kömək almaq məqsədilə böyüklərə müraciət etmək qabiliyyəti və müvafiq davranış vərdişləri formalaşır, o, öz sağlamlığının qorunması məqsədilə elementar davranış qaydalarına (pilləkəni ardıcıllıqla düşməyi, kəsici əşyaları əlinə almamağı), tanış olmayan adamlarla və evdə tək olarkən özünü necə aparmaq qaydalarına yiyələnir.

Muxtar respublikanın artan xətt üzrə inkişafının tələblərinə cavab verən, uğurlu tərəqqinin tükənməz mənbəyi hesab olunan yeni nəsl potensialının formalaşması üçün məktəbəqədər təhsil müəssisələrində uşaqların inkişafına daim nəzarət edilir. Çünki mütəmadi qiymətləndirmələr yüksək nəticələrə nail olunmasının əsas amili kimi çıxış edir. Uşaqların fəaliyyətinin qiymətləndirilməsi zamanı onun sağlamlığı, müstəqilliyi, şifahi nitqinin inkişafı, təlim vəsaitləri ilə işləməyi, əqli fəaliyyətinin, təhliletmə, ümumiləşdirmə bacarıq və vərdişlərinin, kollektiv və qrup tərkibində çalışmağının səviyyəsi nəzərə alınır. Məktəbəqədər təhsil sistemində uşaqların bilik, bacarıq və vərdişlərinin səviyyəsinin qiymətləndirilməsi 3 komponent üzrə həyata keçirilir. Diaqnostik (ilkin) qiymətləndirmə uşağın ilkin inkişaf səviyyəsinin təyin edilməsi üçün sentyabr-oktyabr aylarında, formativ (cari) qiymətləndirmə müntəzəm aparılır, hər bir uşağın nailiyyətləri barədə məlumatın toplanmasına imkan yaradır. Summativ (yekun) qiymətləndirmə isə ilin sonunda aparılır. Bu zaman uşağın ilboyu proqram bölmələri üzrə qazandığı nailiyyətlər ümumiləşdirilir.

Uşaq bağçalarında yeni nəslin ahəngdar inkişafı, nailiyyətlərin davamlı olması, ilk növbədə, müasir reallıqlara cavab verən tərbiyəçi-müəllimlərin bacarıq və iş prinsipindən çox asılıdır. Buna görə də muxtar respublikada məktəbəqədər təhsil müəssisələrində çalışan tərbiyəçi-müəllimlər ali və orta ixtisas təhsilinə, müəyyən keyfiyyət göstəricilərinə malikdirlər. Lakin bununla yanaşı, tərbiyəçi-müəllimlər uşaqlarla münasibətdə səmimi, qayğıkeş xarakterə, pedaqoji mədəniyyətə sahib olmalı, uşağın yaş psixologiyasını yaxşı bilməli, yaş səviyyəsini, potensial imkanlarını nəzərə almaqla, təlim metodlarını düzgün seçməyi, meyil, maraq və qabiliyyətlərini aşkara çıxarmağı, tədris mühitini və işgüzar şəraiti yaratmağı, yeni interaktiv təlim metodlarından, informasiya və kommunikasiya texnologiyalarından istifadə etməyi bacarmalıdır. Həmçinin sağlamlıq imkanları məhdud olan uşağın inkişafındakı geriliklərin aradan qaldırılması üzrə hər bir uşağın fərdi imkanlarını nəzərə almaqla, onların cəmiyyətə uğurlu inteqrasiyasını və erkən sosiallaşdırılmasını həyata keçirməlidirlər. Elə buna görə də muxtar respublikada fəaliyyət göstərən məktəbəqədər təhsil müəssisələrində sağlamlıq imkanları məhdud uşaqlarla işləyən metodist, tərbiyəçi-müəllimlərin müəyyən bacarıq və təcrübələrinin artırılması istiqamətində müvafiq tədbirlər görülür. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı"na uyğun olaraq, Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və aidiyyəti qurumlar tərəfindən məktəbəqədər təhsil müəssisələrində təlim-tərbiyə işinin təşkilinə məsul işçilərin bu sahədə peşəkarlıq səviyyələrinin artırılması məqsədilə 6 dəfə kurs təşkil olunub.

Ümumiyyətlə, uşaq bağçalarında məktəbəqədəryaşlı uşaq lazımi bilik, bacarıq və vərdişlərə yiyələnir. Nəticədə, ana dilində sərbəst danışır, hadisə və obyektləri dəyərləndirməyi, insanlarla ünsiyyət qurmağı, tərəfdaşlıq və əməkdaşlıq etməyi bacarır, zamanı, təbiət hadisələrini dərk etməyə, rastlaşdığı əşyə və hadisələrə maraq göstərib, onların mahiyyətini anlamağa çalışır, baş verən hadisələr, əşyalar üzərində diqqətini cəmləşdirir və iradi olaraq onu maraqlandıran cəhəti tədqiq edir, yeni məlumatları dərketmə qabiliyyətinə malik, sosiallaşmış, yaşına müvafiq əqli və fiziki cəhətdən inkişaf etmiş olur. Bundan əlavə, uşaqda sadə riyazi təsəvvürlər (say, miqdar, həcm, forma, məkan anlayışları) inkişaf edir, uşağın dünyagörüşü formalaşır, öz nailiyyətlərini başqaları ilə bölüşür, verilən tapşırığı yerinə yetirərkən tərbiyəçinin köməyindən istifadə etməklə yanaşı, həm də sərbəst fikir söyləyir, başqasının fikirlərinə münasibət bildirir və məktəb təliminə hazırlıqlı olur. Bütün bu qeyd olunan keyfiyyətlərin mənimsənilməsini reallaşdıran məktəbəqədər təhsil uşaqların pedaqoji prosesdə sosiallaşma imkanlarının genişlənməsinə optimal şərait yaradır.

Bu gün muxtar respublikada təhsilin mənbəyi hesab olunan məktəbəqədər təhsilin keyfiyyətinin yüksəldilməsi istiqamətində davamlı islahatlar həyata keçirilir. Bu baxımdan uşaqların intellektual, fiziki və psixoloji inkişafının təmin edilməsi, onlarda həyati qabiliyyətlərin formalaşması qarşıda duran mühüm vəzifələrdəndir. Bütün bunlar yeni nəslin yüksək bilik və bacarığa sahib olmasına yönəldilmiş dövlət siyasətinin ardıcıllığının və məqsədyönlülüyünün təzahürüdür.

Muxtar respublikada uşaqların məktəbəqədər təhsil alması istiqamətində həyata keçirilən tədbirlər ictimaiyyət tərəfindən rəğbətlə qarşılanır. Valideynlər çətinlik çəkmədən müxtəlif fəaliyyət sahələrində çalışırlar. Xüsusən də məktəbəqədər təhsil qadınların məşğulluq göstəricilərinə müsbət təsir edir. Bu da gənc ailələrin sosial rifahının yüksəlməsinə şərait yaradır. Məktəbəqədər təhsil vasitəsilə uşaqlar arasında bərabərlik imkanlarının yaradılması sonradan cəmiyyətin müxtəlif sosial təbəqələri arasında fərqlərin azalmasına gətirib çıxarır. Eyni zamanda sağlamlıq imkanları məhdud uşaqların uşaq bağçalarına üz tutması bu qəbildən olan uşaqların erkən yaşlarında cəmiyyətə inteqrasiyasını təmin edir, onların ailələrinə mənəvi dayaq olur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***"Uşaq bağçalarının yaradılması, onların fəaliyyətinin təmin olunması məktəbəqədər təhsilin düzgün təşkili ilə yanaşı, həm də ailələrə dəstəkdir. Valideynləri işləyən uşaqlar, eyni zamanda xüsusi qayğıya ehtiyacı olan ailələrdə böyüyən uşaqlar bağçada təlim-tərbiyə alır, onların məktəbəqədər tərbiyəsi düzgün təşkil olunur. Bu mənada bağçaların yaradılması və fəaliyyətinin təmin edilməsi həm də işləyən və xüsusi qayğıya ehtiyacı olan ailələrə göstərilən dövlət qayğısı kimi mühüm əhəmiyyət daşıyır".***

**Sahir RÜSTƏMOV**
***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin şöbə müdiri***

## Tələbələrin "Əlincəqala" tarixi abidəsinə gəzintisi təşkil olunub



***Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin təşəbbüsü ilə Naxçıvan Dövlət Universitetinin Memarlıq və mühəndislik fakültəsinin Memarlıq ixtisası tələbələrinin "Əlincəqala" tarixi abidəsinə gəzintisi təşkil olunub.***

Əvvəlcə tələbələr "Əlincəqala" tarixi abidəsində görülən bərpa işləri ilə tanış olublar.

Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin əməkdaşı Hicran Rüstəmov bildirib ki, 2014-cü il fevralın 11-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov "Culfa rayonundakı "Əlincəqala" tarixi abidəsinin bərpa edilməsi haqqında" Sərəncam imzalayıb. Sərəncamın icrası ilə əlaqədar olaraq hazırda "Əlincəqala" tarixi abidəsində bərpa işləri davam etdirilir. Gəzintinin təşkil olunmasında məqsəd tələbələrin Əlincəqalada aparılan bərpa işləri ilə əyani şəkildə yaxından tanış olmalarına şərait yaratmaqdır.

Hicran Rüstəmov deyib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il iyulun 27-də imzaladığı "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" Sərəncamına uyğun olaraq, Naxçıvan Dövlət Universitetinin Memarlıq və mühəndislik fakültəsinin Memarlıq ixtisası Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin hamiliyinə verilib. Bununla əlaqədar olaraq komitədə tədbirlər planı hazırlanıb və Memarlıq ixtisası tələbələrinin bugünkü gəzintisi həmin tədbirlər planına uyğun olaraq həyata keçirilir. Bu cür tədbirlərin gələcəkdə də mütəmadi olaraq keçirilməsi nəzərdə tutulub.

Əlincəqalanın tarixi barədə tələbələrə ətraflı məlumat verən Naxçıvan Dövlət Universitetinin Memarlıq kafedrasının müdiri, memarlıq üzrə fəlsəfə doktoru, dosent Qadir Əliyev qeyd edib ki, bu tarixi abidənin adı qədim mənbələrdə "Erincaq", "Erincik", "Alancik", "Alınca", "Alancuq" və sair kimi qeyd olunur. Tədqiqatçılar Əlincəqalanın adını qədim türk dilində "düzənlik" mənasında işlədilən "alan" sözü ilə əlaqələndirirlər. Bu, qalanın yerləşdiyi sahənin kiçik meydançaya bənzəməsi ilə əlaqədardır. Qədim tarixi mənbələrə görə, qala 2 min il əvvəl tikilib. Əlincəqalanın divarları Əlincə dağının ətəklərindən başlayaraq pillələr şəklində yuxarıya doğru ucalır və onun zirvəsini tamamilə əhatə edir. Qalanın qədim bəndi ətraf kəndlərdən gətirilmiş iri daşlardan və bişmiş kərpicdən hörülüb. Şimal yamacında yarımdairəvi bürcləri olan üç divarın, qərb yamacında isə səkkiz divarın xarabalıqları qalıb. Xanəgah kəndindən qalaya gələn yolun üzərində gözətçi evi, xəndəklər və müdafiə məqsədi üçün qüllələr inşa edilib.

Vurğulanıb ki, Əlincəqala, əsasən, üç geniş sahədən – şimal, şimal-qərb və cənub-qərb sahələrindən ibarətdir. Şimal sahəsindən şimal-qərb və cənub-qərb sahələrinə qalxmaq üçün daş pillələr qoyulub. Qalanın möhkəm divarları və qayanın sıldırım olması onu sarsılmaz müdafiə istehkamına çevirib. Qalanın kiçik şəhərciyi xatırladan yuxarı hissəsində bişmiş kərpicdən tikilmiş çoxlu yaşayış, ictimai binaların qalıqları və bünövrə daşları nəzərə çarpır. Qala rəislərinin və iri feodalların yaşamış olduğu bu sahə "şahtaxtı" adlanır. Qalada vaxtilə ilxı və mal-qara saxlamaq, 600-ə qədər döyüşçünü öz atı və başqa hərbi sursatı ilə birlikdə yerləşdirmək mümkün idi. Qalanın üzərində müxtəlif yerlərdə 13-dən artıq hovuz qazılmış və daşların üzərində müxtəlif rəsmlər həkk olunmuşdu.

Bildirilib ki, Azərbaycan Atabəyləri – Eldənizlərin hökmranlığı dövründə Əlincəqalanın əhəmiyyəti xüsusilə artıb, mühüm hərbi istehkam olan qala hökmdar ailəsinin təhlükəsizliyini təmin etmək üçün sığınacaq yerinə çevrilib.

Sonra tələbələri maraqlandıran suallar cavablandırılıb.

**Rauf ƏLİYEV**

# Qohum nikahları bir çox fəsadlara yol açır

**Bu gün cəmiyyətimizdə formalaşan bir çox düşüncələr bizi qohum nikahlarına vadar edir. "Özümüzünkü ilə ailə qur, ətimizi yesə də, sümüyümüzü atmaz" deyimi kimi daha neçə səbəblər ucbatından qohum nikahlarına qol qoyuruq. Əksərən qohum ailələr valideynlərin təzyiqi altında qurulur. Çünki düşünürlər ki, qohumluq əlaqələri bununla daha da güclənəcək. Ailədə baş verən münaqişə əksər halda sülh ilə nəticələnəcək. Təbii ki, valideynlər qohum olduğundan aralarında soyuq münasibətin olmasını istəmirlər. Belə ailələrdə boşanma halı da az olur. Bəzi hallarda isə qohum cütlüklər həqiqətən də, bir-birlərinə aşiq olurlar və həyatlarını birləşdirirlər.**

**Qohum nikahlarının səbəblərini araşdırsaq, sayını bir qədər də artıra bilərik. Amma bu nikahlara son qoymaq daha vacibdir. Bəs qohumluq əlaqəsi ilə ailə quran bütün gənclərin bu nikahdan yarana biləcək fəsadlardan xəbərləri varmı, kifayət qədər məlumatlı olaraqmı nikah bağlayırlar?**

***Qohum nikahları xəstə uşaq riskini 2 dəfəyədək artırır***

Hər bir dövrdə müəyyən problemlər nəticəsində nikahların pozulması və ailədə xəstə uşaqların doğulması hallarına rast gəlinir. Bu arzuolunmaz halın yaranma səbəblərindən ən başlıcası qohum nikahlarıdır. Belə nikahlar genetik xəstəliklərə təsir göstərən önəmli amillərdən biridir.

Naxçıvan Doğum Mərkəzinin həkim-ginekoloqu, tibb üzrə fəlsəfə doktoru Gültəkin Əliyeva deyir ki, qohum evliliklərdə problemli uşaqların doğulma riski digərlərinə nisbətən ikiqat artıqdır. Bu evlilikdə olan problem sağlam olan şəxslərin genlərində daşıdıqları xəstəliklərin uşaqlarına keçməsidir.

***Qohum nikahları irsi xəstəlikləri özü ilə gətirir***

"Biz atalarımızın bizə hədiyyə etdiyi genetik xüsusiyyətlərlə yaşayırıq. Qısası, bu genlər bizim bütün həyat tərzimizin divarlarını hörür. Bir və ya bir neçə gen bizdəki özəlliyin məlumatını özündə daşıyır", – deyən həkim-ginekoloq bildirir ki, qohum evlilər eyni soydan gəldikləri üçün ana və atanın eyni geninin surətini daşıyırlar. Bu zaman zərərli genlərin bir-biri ilə qarşılaşma ehtimalı həddindən artıqdır. Ona görə də onların uşaqlarının müəyyən xəstəliklərə tutulması ehtimalı çox yüksək olur. Nəticə olaraq deyə bilərik ki, qohum nikahlar genetik xəstəlikləri artıran önəmli faktordur.

Qeyd edək ki, qohum evliliyi nəticəsində doğulan uşaqların bir qismi 1 yaşına çatmadan ağır infeksiyalar səbəbilə itirilir, xüsusilə də həmin ailələrdə doğulan oğlan uşaqları çox yaşamır. Bu isə immunitet çatışmazlığı ilə bağlıdır ki, bunların da bir qismi məhz qohum evliliklərindən qaynaqlanır.

Tibb üzrə fəlsəfə doktoru Gültəkin Əliyevanın dediklərindən: "Qohum evliliklərdə ən çox rast gəlinən qan xəstəlikləri, göz, qulaq, əzələ-sinir, ürək-damar və şəkər xəstəlikləri, ağıldankəmlik və digərləridir. Qan xəstəlikləri arasında isə talassemiya, hemofiliya və başqaları daha çox yayılıb. Talassemiyanın ən ağır formalarına da əksər hallarda bir-biri ilə qanqohumluğu olan nikahlarda təsadüf edilir. Ona görə də belə nikahlara yol verməmək məsləhət görülür. Bir-biri ilə yaxın qohum olan gənclər ailə qurmaq üçün təkid etdikləri halda, gələcəkdə ağır patologiyalı uşaqların doğulmaması üçün onlar müvafiq tibbi müayinədən, genetik yoxlamadan keçməlidirlər".

***Qohum nikahları daha hansı fəsadları ortaya çıxarır?***

Bu nikahın yaratdığı fəsadlardan biri də otozomal resessiv xəstəlikləri adlanır. Burada genetik keçmənin özəllikləri odur ki, ilk növbədə, cinsiyyət fərqi yoxdur. Otozomal resessiv xəstəliklər hər nəsildə özünü göstərmir. Sağlam ata-anadan doğulan uşaq xəstədirsə, həm ana, həm də ata daşıyıcıdır. Xəstə adam ilə genotipik olaraq tamamilə sağlam şəxs evlənərsə, uşaqlarının hamısı daşıyıcı olacaq. Xəstə şəxslə daşıyıcı şəxs evlənərsə, uşaqlarının yarısı xəstə, yarısı daşıyıcı olacaq. Daşıyıcılar fenotipik olaraq sağlam olsalar da, xəstə genləri sonrakı nəsillərə ötürən daşıyıcı vəzifəsini yerinə yetirirlər. Ümumiyyətlə, irsi xəstəliklərin müalicəsinə gəldikdə mütəxəssis deyir ki, bu xəstəliklə doğulan uşaqların bir qisminin müalicəsi var, bir qismi isə əlil olur.

Həkim-ginekoloq təəssüflə bildirir ki, dünya səhiyyəsi nə qədər qohum nikahlarına yox desə də, bu gün ölkəmizdə yaxın qohumlar arasında bağlanan nikahlara hələ də rast gəlirik. Bu da həmin ailələrdə xəstə övladların dünyaya gəlməsi riskini artırır. Bu gün qurulan hər bir ailə bu məsuliyyəti dərk etməlidir. Gələcəyimizi bu qədər risk altına ata bilmərik, atmamalıyıq. Sağlam cəmiyyətin təməli sağlam ailədə qoyulur.

***Maarifləndirmə işi ən vacib amildir***

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin şöbə müdiri Sahir Rüstəmov bildirir ki, qohum nikahlarına birmənalı olaraq yox deməliyik. Çünki bu nikahlar gələcək nəslimizin sağlamlığını sual altında qoyur: "Təəssüflə deməliyəm ki, Naxçıvan Muxtar Respublikasında da yaxın qohumlar arasında bağlanan nikahlara rast gəlinir. Görünür, gənclər ailə həyatı qurarkən yalnız özləri barədə düşünürlər. Ancaq dünyaya gətirdikləri övladları haqqında da fikirləşməlidirlər. Əsas səbəblərdən biri nikaha daxil olan qan qohumlarının gələcək problemlər haqqında məlumatsız olmasıdır. Buna görə də komitə tərəfindən mütəmadi olaraq gənclər və onların valideynləri arasında maarifləndirmə işləri aparılır. Qohum nikahlarının qarşısının alınması üçün maarifləndirmə işi labüddür. Heç vaxt deyə bilmərik ki, qanqohumluğu mütləq xəstəlik yaradır. Bu nikahlar xəstəlik riskini artırır. Əgər bir neçə xəstəliyin daşıyıcısı olan insan qohumla ailə qurmazsa, o zaman onun riski azdır, əks təqdirdə isə bu risk 2 dəfə artıqdır".

***Sağlam ailə qurmaq naminə düşünməyə dəyər***

Qohum nikahları həm səhiyyə, həm də sosial baxımdan problemdir. Bu problemin isə əsas səbəblərindən biri nikaha daxil olan qan qohumlarının gələcək problemlər haqqında məlumatsız olmasıdır. Ailədə ən mühüm amillərdən birinin məhz sağlamlıq olduğunu deyiriksə, deməli, qohum nikahları xoşbəxt ailə vəd etmir. Elə olduqda isə doğru qərar vermək və sağlam ailə qurmaq naminə düşünməyə dəyər. Düşünüb addım atmalıyıq ki, gələcək fəsadlarla rastlaşmaq ehtimalımız da az olsun.

**Gülnar YÜZBAŞIYEVA**

# Muzeylər ziyarət edilib

18 oktyabr Dövlət Müstəqilliyi Günü münasibətilə Naxçıvan Şəhər Gənclər və İdman İdarəsi və Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə Naxçıvan şəhər tam orta məktəblərinin bir qrup şagirdi Heydər Əliyev Muzeyini ziyarət edib.

Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin rəisi Xəyal Qurbanov ümummilli lider Heydər Əliyevin müstəqil dövlət quruculuğundakı tarixi xidmətlərindən danışıb.

Daha sonra Heydər Əliyev Muzeyinin bələdçisi Hicran Bədəlova şagirdlərə muzeyin yaranma tarixi, buradakı eksponatlar haqqında geniş məlumat verib.

* * *

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin birgə təşkilatçılığı ilə gənclərin tarixi abidələrlə daha yaxından tanış olması, tariximizin unudulmaması və gələcək nəsillərə çatdırılması məqsədilə Naxçıvan Müəllimlər İnstitutu tələbələrinin Hüseyn Cavidin ev-muzeyi və xatirə kompleksinə gəzintisi təşkil olunub.

Muzeyin baş elmi işçisi Naibə Mirzəyeva tələbələrə muzey haqqında ətraflı məlumat verib. O bildirib ki, ev-muzeyi romantik Azərbaycan ədəbiyyatının banisi, görkəmli dramaturq Hüseyn Cavidin 100 illiyi ilə əlaqədar 1982-ci ildə onun yaşadığı evdə yaradılıb. Muzeydə ədibin həyat və fəaliyyətini əks etdirən fotoşəkillər, əsərlərinin ilk nəşrləri, üzərində şairin avtoqrafı olan əsərlər, tamaşaya qoyulmuş dram əsərlərinin afişa və proqramları, müxtəlif xatirə və ev əşyaları, şairin oğlu Ərtoğrol və qızı Turan xanımın əsərləri, Hüseyn Cavidin həyat və fəaliyyəti haqqında müxtəlif dövrlərdə çıxmış monoqrafiyalardan ibarət 9 minə yaxın eksponat qorunub saxlanılır.

Tələbələr muzey eksponatları ilə yaxından tanış olduqdan sonra xatirə kompleksini ziyarət ediblər.

# Tamaşanın son məşqləri gedir

Muxtar respublikamızda uşaq və yeniyetmələrin asudə vaxtlarının səmərəli keçirilməsində, onların mənəvi-estetik tərbiyəsinin formalaşmasında böyük rol oynayan mədəniyyət müəssisələrindən biri də M.T.Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrıdır. Repertuarının daim zənginləşdirilməsi qayğısına qalınan teatrda klassik yazıçı və şairlərlə yanaşı, müasir ədiblərin də yaradıcılığına yer ayrılır, yerli yazarların ədəbi nümunələri uğurla səhnələşdirilir. Hazırda teatrın kollektivi Zaur Vedilinin Azərbaycan nağılları əsasında qələmə aldığı "Çalıb-çağıran ağac" pyesini tamaşaya hazırlayır. Qəhrəmanlıq mövzusunda olan tamaşanın son məşqləri gedir. Tamaşa yadelli işğalçıların ölkəyə daxil olmasını əvvəlcədən xəbər verən ağacdan bəhs edir. Bu ağacın timsalında uşaqlara vətəni qorumağın ən böyük və şərəfli vəzifə olduğu ideyası aşılanır.

Səhnə əsərinin quruluşçu rejissoru Azərbaycan Respublikasının Xalq artisti Yasəmən Ramazanova, quruluşçu rəssamı Murad Babayev, bəstəkarı isə Əli Məmmədovdur.

Əsas rolları Arzu Səfərov, İbad Nəbiyev, Süleyman Süleymanov, İlham və İlqar Babayevlər, Vəsmə Quliyeva, Ulduz Süleymanova, Əfqanə Ələsgərova və başqaları ifa edəcəklər.

Tamaşa oktyabrın sonunda balaca teatrsevərlərə təqdim olunacaq.

**Xəbərlər şöbəsi**

# Peyntbol üzrə birincilik

*Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Atıcılıq Federasiyasının birgə təşkilatçılığı ilə 18 oktyabr Dövlət Müstəqilliyi Gününə həsr olunmuş Naxçıvan şəhərində fəaliyyət göstərən ümumtəhsil müəssisələrinin şagirdləri arasında peyntbol üzrə birincilik keçirilib.*



Naxçıvan Atıcılıq Mərkəzində keçirilən birincilikdə 19 komandanın tərkibində 120-yə yaxın şagird iştirak edib.

Yarışın açılış mərasimində çıxış edən Gənclər və İdman Nazirliyinin Kütləvi bədən tərbiyəsi və idman şöbəsinin müdiri Taleh İbrahimov müstəqillik günü münasibətilə keçirilən birincilikdə iştirak edən idmançıları təbrik edib və ölkəmizin müstəqillik tarixi barədə danışıb. Muxtar respublikada idmana və idmançılara göstərilən diqqət və qayğıdan bəhs edən nazirliyin əməkdaşı sonra yarışın qaydaları haqda şagirdləri məlumatlandırıb.

İki gün davam edən yarış olimpiya sistemi üzrə keçirilib. Yarımfinal mərhələsində 15 və 16 nömrəli tam orta məktəblərin komandalarını məğlub edən Heydər Əliyev adına Hərbi Lisey və 9 nömrəli tam orta məktəbin komandaları adlarını finala yazdırıblar. İlk olaraq peyntbol sahəsinə üçüncü yer uğrunda 15 və 16 nömrəli tam orta məktəbin komandaları daxil olub. Bu görüşdə 15 nömrəli tam orta məktəbin şagirdləri qələbə qazanaraq birinciliyi üçüncü pillədə başa vurublar.

Final görüşündə isə hərbi liseyin kursantları 9 nömrəli tam orta məktəbin şagirdlərini üstələyiblər.

Mükafatlandırma mərasimində çıxış edən gənclər və idman naziri Azad Cabbarov, Atıcılıq Federasiyasının sədri Asəf Məmmədov və Heydər Əliyev adına Hərbi Liseyin rəisi Elman Orucov muxtar respublikada idmanın inkişafı istiqamətində həyata keçirilən tədbirlərdən danışıblar, qalibləri təbrik ediblər.

Qaliblərə diplom, medal, kubok və hədiyyələr verilib.

# Basketbol çempionatının 8-ci turu başa çatıb

*Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Basketbol Federasiyasının birgə təşkil etdiyi kişilər arasında basketbol üzrə muxtar respublika çempionatında 8-ci turun oyunları keçirilib.*

Turun ilk görüşü "Babək" komandasının səfərdə inamlı qələbəsi ilə yadda qalıb. Belə ki, onlar "Lokomotiv"i 33:16 hesabı ilə məğlub edərək turnir cədvəlində dördüncü pilləyə yüksəliblər. Liderlər cərgəsində yer alan "Ordubad" komandası da bu turu qələbə ilə başa vurub. Səfərdə "Culfa" komandasının qonağı olan ordubadlı basketbolçular meydanı 47:16 hesablı qələbə ilə tərk ediblər. Cari çempionatda itkisiz irəliləyən "Naxçıvan" komandası bu turda da aktivinə 2 xal yazdırmağa müvəffəq olub.

"Naxçıvan" Universitetinin komandası üzərində qələbə həm də 8-ci turun ən böyükhesablı qələbəsi olub – 77:44. Çempionatın autsayderləri "Sədərək" və "Şərur" komandalarının görüşü isə birincilərin qələbəsi ilə yekunlaşıb – 40:22.

**Ceyhun MƏMMƏDOV**

| s/s | Komandalar | O | Q | M | T/F | X |
|---|---|---|---|---|---|---|
| 1. | Naxçıvan | 8 | 8 | 0 | 642-294 | 16 |
| 2. | Ordubad | 8 | 7 | 1 | 458-292 | 15 |
| 3. | Culfa | 8 | 5 | 3 | 413-363 | 13 |
| 4. | Babək | 8 | 4 | 4 | 347-330 | 12 |
| 5. | Lokomotiv | 8 | 3 | 5 | 297-354 | 11 |
| 6. | "Naxçıvan" Universiteti | 8 | 2 | 6 | 315-475 | 10 |
| 7. | Şərur | 8 | 2 | 6 | 215-379 | 10 |
| 8. | Sədərək | 8 | 1 | 7 | 281-481 | 9 |

***İtmişdir***

Naxçıvan şəhəri, Xətai məhəlləsi döngə 19/44A ünvanında yaşayan Seyidov Mirabdulla Mirbaba oğlunun adına 12 dekabr 2014-cü il tarixdə verilmiş AA-009990 inventar nömrəli torpaq sahəsinin planı və ölçüsü itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Hüseynov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 753